

Bakıda övladının müəllim tərəfindən döyülən valideynin şikayəti əsasında məhkəmə başlayır

Qaradağ rayonunda yaşayan Samirə Heydərova 106 nömrəli ora məktəbin ibtidai sinif müəllimi Tünzalə Qasımovaya qarşı iddiası üzrə məhkəmənin hazırlıq iclasının vaxtı məlum olub.

S. Heydərovanın vəkili Lalə Mənsurova xeber.news-a bildirib ki, işə Qaradağ Rayon Məhkəməsində fevralın 7-də baxılacaq.

Qeyd edək ki, S. Heydərovanın qızı, həmin məktəbin 1-ci sinif şagirdi Nihal Heydərli müəllim tərəfindən döyülüb. Müəllimə qarşı maddi və mənəvi ziyana görə 60 min manatlıq təzminat iddiası qaldırılıb.